# Risk bildirişi

## Marja ticarəti üzrə

Müqavilə şərtlərində qeyd edilən müddəalarla yanaşı aşağıdakı risk faktorlarını da nəzərə almalısınız:

- Xarakteri etibarilə marja ticarəti əməliyyatları yüksək risk səviyyəsinə malikdir. Kredit dəstəyi səbəbi ilə, ticarət əməliyyatlarının kiçik miqdarda təminatla həyata keçirilə bilinməsi iştirakçının lehinə olmaqla yanaşı əleyhinə də nəticələr yarada bilər. Bu mənada, Marja ticarəti şərtləri yüksək qazanc yarada biləcəyi kimi böyük həcmdə zərərlərə də yol aça bilər. Qiymətlərin proqnozlaşdırılan istiqamətə əks istiqamətə dəyişməsi nəticəsində İnvestisiya Şirkəti nəzdindəki müvafiq Ticarət hesabına yaratdığınız vəsaiti təmamilə itirə bilərsiniz. Yüksək gəlirə ümid edərək risk məhdudiyyətlərinizi nəzərdən qaçırmamalısınız.
- Həyata keçirilən ticarət əməliyyatları və ya birjadakı qiymət dinamikası ilə bağlı məlumat və tövsiyyələrin birjadakı bütün mənzərələri tam əks etdirmədiyini və təsdiqə ehtiyacı olduğunu nəzərə almalısınız.
- Marja ticarəti ilə bağlı hər hansı növ analiz nəticələri bu analizi hazırlayan şəxslərin şəxsi mülahizəsinə əsaslanır və bu məlumatlardakı gələcək hədəflərin reallaşmama ehtimalı da mövcuddur.
- Xarici valyutada ifadə olunan maliyyə alətləri ilə həyata keçirilən ticarət əməliyyatlarında yuxarıda qeyd edilənlərlə yanaşı məzənnə riskləri də mövcuddur. Məzənnə dəyişikliyi nəticəsində əməliyyatların müsbət nəticələrində azalma yarana bilər və ya ümumi zərər həcmi arta bilər. Bununla yanaşı dövlətlərin xarici investisiya və kapital hərkətlərini məhdudlaşdıracağı, vergi sisteminə dəyişiklik edilə bilinəcəyi və ticarət əməliyyatlarının icra müddətində dəyişikliklərin yarana biləcəyi ehtimalı da əlavə risk faktorları doğurmaqdadır.
- Maliyyə alətləri üzrə təklif olunan qiymət və spredlər İnvestisiya Şirkətinin ticarət sistemi və biznes meyarlarına uyğun olaraq fərqlənə bilər. Bu səbəbdən ticarət edəcəyiniz maliyyə alətlərinin ticarət şərtləri ilə yaxından tanış olmalısınız.
- İstifadə olunacaq ticarət platformasının imkanlarından faydalana bilmək üçün dayanıqlı və surətli internet xəttinin, müvafiq əməliyyat sisteminin və eləcədə bu platformanı istifadə edəcək şəxsin platformanı istifadəsi haqqında kifayət qədər texniki biliklərə sahib olması vacibdir. Qeyd olunan şərtlərin təmin edilməməsi və ya yetərsiz səviyyədə təmin edilməməsi tamamilə Müştərinin məsuliyyətindədir.
- Marja ticarəti ilə bağlı bu risk bildirişi investorları ümumi olaraq mövcud risklər haqqında məlumatlandırmaq məqsədi daşıyır və investisiya alətlərinin alqı-satqısı ilə bağlı bütün riskləri əhatə etməyə bilər. Beləliklə, kapitalınızı bu növ investisiya alətlərinə yatırmadan öncə müvafiq investisiya ilə bağlı diqqətli bir şəkildə araşdırma etməlisiniz.

**Törəmə maliyyə alətlər üzrə**

- İnvestisiya şirkəti nəzdində açacağınız hesab və bu hesab üzərindən Törəmə alətlərlə həyata keçirəcəyiniz əməliyyatlara müvafiq qanunvericilik aktlarının və normativ-hüquqi sənədlərin müddəaları tətbiq ediləcəkdir.
- Törəmə alətlərlə ticarət özündə fərqli riskləri ehtiva edir. Birjadakı qiymət dəyişikliklərinin nəticəsində İnvestisiya şirkəti nəzdində açdığınız hesabdakı aktivlərinizi bütünlüklə itirə biləcəyiniz kimi,zərərləriniz təminat miqdarlarınızın toplam həcmini də aşa bilər.
- Törəmə alətlərlə ticarət etmək üçün İnvestisiya şirkətinəzdində açacağınız hesabınıza,birjalarda törəmə alətlərlə edəcəyiniz hər bir alqı-satqı əməliyyatı müqabilində ən azı Birja tərəfindən müəyyənləşdirilən həcmdə İlkin Təminat yerləşdirməlisiniz.
- Müştəri, İnvestisiya şirkətitərəfindən göndəriləcək “Təminat artırma” bildirişlərinin tələb edilən vaxtda və həcmdə yerinə yetirmədiyi təqdirdə, müvafiq əməliyyat heç bir əlavə bildiriş təqdim edilmədən, bazar dəyəri əsasında Müştərinin zərərinə də olsa bağlana bilər.
- Birjanın İdarə Heyəti müvafiq qanunvericilik çərçivəsində fyuçers və opsion müavilələrinin sövdələşmə müddətini müəyyənləşdirmək və ya müəyyənləşdirilmiş sövdələşmə müddətlərinə dəyişiklik etmək hüququna malikdir.
- Almış olduğunuz opsion üzrə hüquqlarınızı sövdələşmə müddətinin sonunadək reallaşdırmadığınız təqdirdə risklərinizi, opsion mükafatı və buna əlavə olaraq ödəyə biləcəyiniz komissiya və digər haqqlarla məhdudlaşdıra bilərsiniz.
- Opsion satışı əməliyyatlarınız zamanı mövqeyinizə əks istiqamətdə baş verə biləcək qiymət dəyişikliyi nəticəsində opsion mükafatı şəklində əldə etdiyiniz məbləğin dəfələrlə üzərində zərər riski ilə də qarşılaşa bilərsiniz. Satış opsionu üzrə ödəliyinizi sövdələşmə sonunda icra etməniz tələb edildikdə buna hər hansı bir şəkildə müdaxilə etmək hüqunuz yoxdur. Başqa sözlə, yalnız yetərli qədər yüksək investisiya imkanına sahib investorlar üçün opsion satışları nəzərdə tutulmuş effektivliyi təmin edə bilər.
- Opsionların bir sıra növləri vardır və bu qiymətli kağızlarla ticarətə başlamadan öncə investisiya imkanlarınızın bu növ ticarətə uyğunluğu barədə məlumat almalısınız.
- Birjadakı ifrat volatillik, likvidliyin aşağı olması, anormal qiymət dəşikliyi baş verdiyi hallarda Müştəri tərəfindən verilən tapşırıqların icraya qəbul olunmaması ehtimalı da yarana bilər.

- Fyuçers və ya opsion müqavilələrinin ticarət edildiyi birjalarında bu törəmə əmliyyatlarının baza aktivi kimi çıxış etdiyi fərq müqavilələri ilə ticarətdə də aşağı risklilik ehtimalı qorunmaya bilər.



- Marja ticarəti şərtlərində əməliyyat həcminə tətbiq edilən kredit dəstəyinin Müştərinin lehinə çalışacağı kimi əleyhinə də nəticələr verə biləcəyi və bu mənada Marja ticarəti şərtlərinin yüksək gəlirlə böyük zərərlərə də səbəb ola biləcəyi nəzərə alnınmalıdır.
- Maliyyə aktivləriniz üzrə mövqeləriniz nəzərə alınmaqla hesabınızın həcmi investisiya şirkəti tərəfindən təyin olunan təminat həcminin müəyyən olunmuş minimum nisbətinə yaxınlaşdığı təqdirdə bu aktivlər üzrə eyni həcmdə olmaqla məhdudlaşan əks tapşırıqlarınız Birja tərəfindən icra edilməyə bilər.
- Birjadakı qiymət dəyişikliklərimaliyyə aktivləriniz üzrə mövqeyinizə zərər verəcək şəkildə dəyişdiyi təqdirdə hesabınız Birja tərəfindən riskli hesab olaraq təsnifləşdirilə bilər. Bu halda Birjaya passiv ticarət tapşırığı (gözləmə ticarət tapşırığı) verməniz mümkün olmaya bilər.
- Törəmə alətlərlə verdiyiniz tapşırıqlar barəsində İnvestisiya şirkəti tərəfindən təqdim ediləcək məlumatlar və tövsiyyələr əksik və təsdiqə ehtiyacı ola bilər.
- Fyuçers və opsion müqavilələrinin alqı-satqısı ilə bağlı hazırlanan hər hansı növ analizlər bu analizləri hazırlayan şəxslərin mövqeyinə bağlı olaraq fərqli ola bilər və bu analizlərdə verilən tamamilə reallaşmama ehtimalı da olduğu nəzərə alınmalıdır.
- Xarici valyutalarda ifadə olunan törəmə alətlər üzrə yuxarıdakı risklərlə yanaşı valyuta risklərinin də mövcud olduğunu,məzənnə dəyişikliyi nəticəsində əlavə zərərin meydana gələ biləcəyi,xarici valyutanın mənsub olduğu valyuta rejiminin sərtləşdirilə biləcəyi,bununla bağlı əlavə öhdəliklərinizin yarana bilənəciyini, həmçinin alqı-satqı tapşırıqlarının vaxtında reallaşdırıla bilinməyəcəyini nəzərə almalısınız.

Qiymətli Kağızlar Bazarı ilə bağlı bu risk bildirişi investorları ümumi olaraq mövcud risklər haqqında məlumatlandırmaq məqsədi daşıyır və fyuçers,opsionlar kimi törəmə qiymətli kağızların alqı-satqısı ilə bağlı bütün riskləri əhatə etməyə bilər. Beləliklə, kapitalınızı bu növ investisiya alətlərinə yerləşdirmədən öncə müvafiq investisiya ilə bağlı diqqətli bir şəkildə araşdırma etməlisiniz.

**Müştəri bu Risk bildirişini imzalamadan öncə müqavilənin ayrılmaz bir hissəsi olan və Müqaviləyə əlavə şəkildə qeyd edilmiş marja ticarəti və törəmə maliyyə alətlərlə bağlı Risk bildirişi ilə tanış olduğunu qəbil edir.**

**Müştəri**

A.A.S: ____________________

*Marja Ticarəti üzrə Müqaviləyə Əlavə № 03*

## ELEKTRON TİCARƏT PLATFORMASI İSTİFADƏÇİ ŞİFRƏSİ VƏ BİLDİRİŞ, HESABATLARIN QƏBULU FORMASI

- Şirkətimizin nəznində açdığınız hesabınızda marja ticarəti əməliyyatlarınızı həyata keçirmək üçün istifadə edəcəyiniz ticarət platforması və ya digər onlayn ticarət vasitələri ilə hesabınızı idarə edə bilmək məqsədilə hesab şifrəniz və istifadəçi kodunuz tələbinizə müvafiq olaraq Müştəri məlumatlarında sizin adınıza qeyd edilmiş mobil nömrənizə SMS vasitəsilə və ya elektron poçt ünvanınıza bu Əlavənin aşağıdakı imza bölümünü imzaladıqdan sonra göndəriləcəkdir.

  Hesab şifrəmi və istifadəçi kodumu aşağdakı əlaqə vasitəsilə almaq istəyirəm :

  - Mobil nömrəmə SMS vasitəsilə;
  - Elektron poçt ünvanıma mesaj göndəriş vasitəsilə;

- Tərəfinizə göndəriləcək şifrə, ticarət sistemində ilk giriş zamanı istifadə etməyiniz üçün nəzərdə tutulmuş bir şifrədir və sistemə ilk girişinizdə bu şifrə istəyinizə uyğun olaraq dəyişə bilərsiniz. Təhlükəsizlik baxımından ticarət sistemi şifrənizin məxfiliyini təmin etməyinizi tövsiyyə edirik. Şifrənizin məxfiliyini lazımi səviyyədə qorumamanız və ya üçüncü şəxslərin bu şifrəni qərəzli məqsədlərlə istifadəsi nəticəsində yarana biləcək bütün hallara qarşı məsuliyyət daşıyırsınız. Ticarət sistemını girişlə bağlı hər hansı çətinliyiniz yaranarsa Texniki Dəstək xidmətimizin imkanlarından faydalana bilərsiniz.

- Şirkət tərəfindən müştəriyə, aparılmış əməliyyatlarla bağlı məlumatları özündə əks etdirən hesabatı eləcə də bütün növ bildiriş və xəbərdarlıqları Müştəri Anketində qeyd olunmuş e-mail ünvanına elektron şəkildə göndəriləcəkdir.

**Müştəri**

A.A.S: ____________________

*Marja Ticarəti üzrə Müqaviləyə Əlavə № 04*

# TƏMİNAT VƏ MARJA

**<u>Kredit dəstəyi</u>**

Bu müqaviləsi çərçivəsində valyuta tərkibli maliyyə alətləri ilə həyata keçirəcəyim ticarət əməliyyatlarında əməliyyatların həcminə kredit dəstəyinin aşağdakı nisbətlərdə tətbiq ediləcəyini qəbul və bəyan edirəm.

- 1:10
- 1:20
- 1:30
- **<u>1:50</u>**
- 1:100

**<u>Açıq əməliyyatlar üzrə təminatın nisbəti</u>**

Açıq əməliyyatlar üzrə təminat (margin call) - 50.00%

Əməliyyat bağlanışı üçün təminat (stop-out level) - 0.20%

Tərəflər, bu müqavilə çərçivəsində valyuta tərkibli maliyyə alətləri ilə həyata keçirilən ticarət əməliyyatlarında yuxarıda qeyd edilən Kredit dəstəyi və Təminat nisbətlərinin tətbiq ediliceyəni və yuxarıda qeyd edilməyən qoymətli kağızlar və digər maliyyə alətləri ilə ticarət əməliyyatlarında müvafiq nisbətlərin İnvestisiya Şirkətinin müəyyənləşdirdiyi normalarda tətbiq edilə biləcəyini qəbul edirlər.

**Müştəri**

A.A.S: ________________